

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 78 (22.989)

27 aprel 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfər edib.

Aprelin 26-da Prezident İlham Əliyev Londonda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

Dövlətimizin başçısının həmin gün Londonda Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycan ilə dostluq qrupunun sədri Bob Bləkmən, Lordlar Palatasının üzvü, Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans və İcmalar Palatasının üzvü, Şimali İrlandiya üzrə dövlət nazirinin müavini Devid Morris ilə birgə görüşü olub.

Prezident İlham Əliyev aprelin 26-da Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan ilə görüşüb.

Dövlətimizin başçısı həmin gün Londonda Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed ilə görüşüb.

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşü olub.

## Naxçıvanda "Vəkillik etikası: müasir çağırışlar" mövzusunda seminar keçirilib

*Aprelin 26-da Naxçıvan şəhərində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Vəkillər kollegiyalarının, həmçinin Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan Nümayəndəliyinin təşkilatçılığı ilə "Vəkillik etikası: müasir çağırışlar" mövzusunda seminar keçirilib.*

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Qasım Əliyev muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yaradılmış şəraitdən danışmış, demokratik dövlət quruculuğu istiqamətində görülən işləri diqqətə çatdırmışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının təminatı sahəsində bir sıra işlər görülmüşdür. Ombudsman institutunun yaradılması, insan hüquqlarının təminatı ilə bağlı Konstitusiya nəzarəti institutunun formalaşdırılması, məhkumların və saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi məqsədilə müasir standartlara cavab verən Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi və Müvəqqəti Saxlama Təcridxanasının tikilməsi, ahılların, əlillərin, fiziki imkanları məhdud uşaqların hüquqlarının qorunması və sosial rifah halının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada insan amilinə verilən diqqətin bariz nümunəsidir. Muxtar respublikada kompleks inkişafa nail olunması, məşğulluğun təmin edilməsi, səhiyyə və təhsil müəssisələri üçün binaların tikilməsi, kənd mərkəzlərinin istifadəyə verilməsi, yeni yolların çəkilməsi və bütün sahələrdə müasir infrastrukturun yaradılması insanların layiqli həyat səviyyəsinin təmin olunması istiqamətində görülən işlərin davamlı olduğunu göstərir.

Cəlil Rüstəmov diqqətə çatdırmışdır ki, muxtar respublikada Vəkillər Kollegiyasının yaranmasının mühüm əhəmiyyəti vardır. Naxçıvan Muxtar Respublikasında Vəkillər Kollegiyasının yaradılması Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı nəticəsində mümkün olmuşdur. Lakin Azərbaycan Respublikası Vəkillər Kollegiyasının keçmiş sədri Azər Tağıyev və bəzi dövlət orqanlarının rəhbərləri anlaşılmaz qısqanclıq hissi ilə Naxçıvanda bu qurumun yaranmasına mane olmuşlar. Onların bu cür əsassız mövqeyi Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası arasında əlaqələrin zəif qurulmasına səbəb olmuşdur. Bütün bunlara baxmayaraq, 2008-ci ildə Naxçıvan Muxtar Respublikasında Vəkillər Kollegiyası yaradıldı və bu qurum ötən müddətdə mühüm inkişaf yolu keçdi. Muxtar respublika rəhbərinin qayğısı ilə kollegiya üçün inzibati bina tikilərək 2011-ci ildə vəkillərin istifadəsinə verilmiş, kollegiyanın aparatının saxlanılması üçün dövlət tərəfindən müvafiq köməklik göstərilmişdir. Ötən müddətdə vəkilliyə qəbul üçün zəruri təşkilati işlər görülmüş, 3 dəfə qəbul imtahanı keçirilmişdir. Nəticədə, muxtar respublikada insanlara peşəkar hüquqi yardım göstərən vəkillərin sayı 21-ə çatmışdır.

Bildirilmişdir ki, vəkil etikasına həsr olunmuş bugünkü seminar müasir dövr üçün aktualdır. Çünki vəkilin nüfuzu xeyli dərəcədə vəkil etikasına əməl olunmasından asılıdır. Müasir dövrün çağırışları da peşə etikasına əməl olunmasının peşəkarlığa aparan əsas tələb olduğunu təsdiq edir. Peşə etikası isə həmin peşəni digərlərindən fərqləndirən, ona etibar və nüfuz qazandıran davranışlardır. Cəlil Rüstəmov seminarın əhəmiyyətini bir daha vurğulayaraq Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası ilə qarşılıqlı əməkdaşlıq əlaqələrinin muxtar respublikada vəkillik institutunun inkişafına öz töhfəsini verəcəyinə əminliyini ifadə etmişdir.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov "Vəkillik etikasının aktual problemləri – vəkilin nüfuzu, onun şəxsi və işgüzar keyfiyyətləri" mövzusunda çıxış edərək demişdir ki, ölkəmizdə vəkillik fəaliyyətinin təkmilləşdirilməsi, insan və vətəndaşların hüquqlarının səmərəli müdafiəsi ilə bağlı mütərəqqi islahatlar aparılır, xüsusilə vəkillərin sayının artırılması, onlara olan etimadın gücləndirilməsi, habelə son nəticədə, vəkilliyin nüfuzunun artırılması üçün işlər görülür. "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 fevral tarixli Sərəncamı ölkəmizdə vəkillik fəaliyyətinin bir daha dövlətimiz tərəfindən diqqət mərkəzində olduğunu göstərir. Vəkillərin davranış qaydaları ilə bağlı belə tədbirlərin keçirilməsi isə vəkillərin davranışı ilə bağlı deontoloji qaydaların mütərəqqi beynəlxalq standartlara yaxınlaşması məqsədinə xidmət etməklə yanaşı, vəkil peşəsinin nüfuzunun artmasına da öz töhfəsini verir.

Sonra seminarda Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının sədri Tural Hüseynovun "Sosial şəbəkələr – vəkil etikasının hədləri", Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədr müavini Aydın Axundovun "Vəkillərin müvəkkillər ilə münasibətlərinin bəzi aspektləri", Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Vəkillərin intizam komissiyasının sədri Şahmar Məmmədovun "Vəkillərin məhkəmə və digər orqanlar ilə münasibətləri", Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü Muxtar Mustafayevin "Vəkillərin öz həmkarları ilə münasibətləri və vəkil sirri" mövzularında çıxışları dinlənilmişdir.

**"Şərq qapısı"**

## Muxtar respublika üzrə 928 nəfərə birdəfəlik maddi yardım ödəniləcək

***Ulu öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müharibə veteranlarına qayğı göstərilməsini də daim diqqət mərkəzində saxlayır.***

Hər il olduğu kimi, bu il də ölkə başçısı aprelin 20-də "1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına, həlak olmuş və ya sonradan vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalamışdır.

Həmin sərəncamın icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən birdəfəlik maddi yardım hüququ yaranan şəxslərə vaxtında çatdırılması üçün müvafiq işlər həyata keçirilir.

Qeyd edək ki, sərəncama əsasən muxtar respublika üzrə 928 nəfərə birdəfəlik maddi yardımın ödənilməsi nəzərdə tutulub. 25 nəfər 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçısının hər birinə 1000 manat, 903 nəfər İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin illərdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüşən cəbhələrin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində orduda nun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarının hər birinə isə 500 manat məbləğində birdəfəlik müavinət ödəniləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvanın cümhuriyyət dövrü tarixindən bəhs edən elmi konfrans

***Naxçıvan Dövlət Tarix Muzeyində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə "Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə" mövzusunda elmi konfrans keçirilib.***



Tədbiri giriş sözü ilə muzeyin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov açaraq 1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın dövlətçilik tarixində şanlı bir səhifə olduğunu vurğulayıb, ümummilli lider Heydər Əliyevin Xalq Cümhuriyyətinin ənənələrinin yaşadılması istiqamətindəki əvəzsiz xidmətlərindən danışıb.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin qeyd olunması, 2018-ci ilin Azərbaycan Respublikasında "Cümhuriyyət ili" elan edilməsi dövlətçilik tariximizin öyrənilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Naxçıvan Milli Komitəsinin fəaliyyəti cümhuriyyət dövründə" mövzusunda çıxışında qeyd edib ki, bu komitələr milli hərəkatın qarşısında duran vəzifələri müəyyən edən tələblər hazırlamaqla yanaşı, şəhər dumaları və digər təşkilatlarla birgə Naxçıvan diyarında yerli hakimiyyət orqanlarının möhkəmləndirilməsinə də kömək ediblər. Onların başçılığı ilə silahlı qüvvələrin yaradılması dinc əhalinin daşnakların fitnəkar hərəkətlərindən qorunmasında böyük rol oynayıb.

Vurğulanıb ki, cümhuriyyətin yarandığı vaxtdan Naxçıvan Milli Komitəsi onunla əlaqə yaratmağa, qədim diyarın Azərbaycanın tərkibinə daxil olmasına çalışıb. Lakin yaranmış siyasi və beynəlxalq vəziyyət həmin vaxtda xalqın bu arzusunu həyata keçirməyə imkan verməyib. Sonralar naxçıvanlıların apardığı gərgin mübarizənin nəticəsində qədim diyar Azərbaycanın tərkibində saxlanılıb.

Tədbirdə Naxçıvan Dövlət Tarix Muzeyinin bələdçiləri Xavər Nuri "Naxçıvan Azərbaycan Xalq Cümhuriyyəti dövründə", Xaqan Ağəlisoy isə "Naxçıvan Araz-Türk Cümhuriyyəti" mövzularında çıxışlar ediblər.

Sonda konfrans iştirakçıları Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş sərgi ilə tanış olublar.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Babək rayonu-40*

# Azadlıq və müstəqillikdən bəhrələnən inkişaf yolu

*Bu ilin oktyabr ayında Babək rayonunun yaradılmasının 40 illiyi tamam olur. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il fevralın 16-da "Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında" Sərəncam imzalayıb. Sərəncamın preampula hissəsində qeyd olunur:* ***"Ötən əsrin 70-ci illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq xətti Azərbaycanın regionlarını da əhatə etmiş, Naxçıvan Muxtar Respublikasında yeni rayonun yaradılması qərara alınmışdı. 1978-ci il oktyabrın 23-də təşkil olunmuş rayona xalq qəhrəmanı Babəkin adının verilməsi ulu öndərimizin qətiyyətinin, daim azərbaycançılıq mövqeyində dayanması istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsi idi..."***






Bəli, 40 il bundan əvvəl keçmiş Naxçıvan rayonunun tərkibindən ayrılaraq təşkil olunan yeni rayonun xalq qəhrəmanının adına rəsmiləşdirilməsi o dövr üçün çox riskli bir addım idi. Həm də nəzərə alaq ki, bu ad hər hansı bir küçə, prospekt və yaxud meydan kimi ünvanlara deyil, birbaşa ərazi vahidi kimi təşkil olunmuş yeni rayona verilirdi. O dövrdə SSRİ-nin tərkibində yaşayan xalqların, xüsusilə türk xalqlarının tarixi keçmişi ilə bağlı bütün əlaqələrin kəsilməsinə yönəlmiş ideoloji xətt aparılan dövlət siyasətinin mühüm hissəsini təşkil edirdi.



Bu ideologiyanın nəticəsi idi ki, sovet tarixşünaslığında Babək sadə xalq kütlələrinin müdafiəçisi qismində çıxış edən üsyançı kimi qələmə verilirdi. Babəkə sinfi qəhrəman donu geyindirməyə çalışan bu ideoloji konsepsiya, təbii ki, Azərbaycanın milli dövlətçilik tarixində baş verən prosesləri mahiyyəti ilə çatdırmağa imkan verə bilməzdi. Halbuki Babək Azərbaycan tarixinin ən şanlı səhifələrinə öz adını qızıl hərflərlə yazmış bir tarixi şəxsiyyət və xalq qəhrəmanıdır. Azadlığı, müstəqilliyi hər şeydən üstün tutan, zülmə boyun əyməyən, Vətəni üçün canından keçən Babək, eyni zamanda özünün ən məşhur kəlamı ilə azərbaycançılıq ideologiyasının xarakterini təsvir etmişdir: qırx il qul kimi yaşamaqdansa, bir gün azad yaşamaq daha yaxşıdır!

Təbii ki, Babək kimi tarixi şəxsiyyətə obyektiv qiymət vermək, onun həyat və fəaliyyətini, mübarizə amalını dəyərləndirərək təbliğ etmək, ilk növbədə, uzaqgörənlik və milli düşüncəyə hakim olmaqdan keçirdi. Məhz Heydər Əliyev kimi dahi şəxsiyyətin fəaliyyətində Babəkin əsrlər sonra xalq qəhrəmanı kimi yenidən öz təsdiqini tapması həmin dövrdə ictimai quruluşun bütün tələblərini pozaraq alt-üst edirdi. Bu azad düşüncənin məhsulu olan qərar, eyni zamanda ulu öndərin gələcək müstəqil Azərbaycan uğrunda apardığı böyük siyasətin qələbəsi idi.

Təşkil olunduğu dövrdən ötən müddət ərzində Babək rayonu hərtərəfli inkişaf edərək Heydər Əliyev ideyalarının uğurlu nəticələrinin əyani ifadəsinə çevrilən bir bölgəyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafındakı rolu nəzərə alınaraq 2008-ci il 7 iyun tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Babək rayonunun təşkil olunmasının 30 illiyi haqqında Sərəncam imzalamış və qəbul edilmiş tədbirlər planına əsasən yubiley geniş şəkildə qeyd olunmuşdur.

Bu gün isə Babək rayonu ömrünün 40-cı baharını yaşayır. Bu 40 il ərzində xalq qəhrəmanının adını daşıyan rayon böyük bir inkişaf yolu qət etmişdir. 75 min sakini olan rayonun əksər kəndlərində kompleks quruculuq işləri aparılmış, rayon ərazisi elektrik enerjisi və təbii qazla, poçt, genişzolaqlı və simsiz internet xidmətləri ilə təmin edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 mart tarixli Sərəncamına əsasən Hacıvar-Vayxır-Sirab, 2014-cü il 27 avqust tarixli Sərəncamına əsasən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Azadkənd dairəvi avtomobil yolu, həmçinin Yarımca-Qahab-Nəcəfəli dizə-Naxışnərgiz avtomobil yolu yenidən qurulmuşdur. Rayon mərkəzi ilə yanaşı, kəndlərdə də təhsil, səhiyyə, mədəniyyət müəssisələri, inzibati binalar və xidmət sahələri tikilərək istifadəyə verilmişdir. Təkcə 2017-ci ildə rayon İcra Hakimiyyətinin inzibati binası, Gərməçataq və Payız kəndlərində məktəb binaları, kənd və xidmət mərkəzləri, Nehrəm kəndində Heydər Parkı istifadəyə verilib, Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinin Xətai məhəlləsinə birləşdirən yol, eləcə də həmin kəndlərdə içməli su və kanalizasiya şəbəkəsi qurulub. 2017-ci ildə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 66 milyon 617 min 100 manat vəsait yönəldilib. Bu da bir il öncəki göstəricidən 0,7 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 64 milyon 307 min 800 manatı və ya 96,5 faizi tikinti-quraşdırma işlərində istifadə edilib. Su təchizatı və kanalizasiya investisiya proqramına uyğun olaraq hər iki kənddə, ümumilikdə, 37,3 kilometr uzunluğunda müxtəlif diametrli borularla içməli su xətti çəkilib, 1103 evə su verilərək sayğac quraşdırılıb, 4 mindən artıq sakin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunub. Şıxmahmud və Xəlilli kəndlərində müxtəlif diametrli borularla 34,5 kilometr uzunluğunda kanalizasiya xətləri də çəkilib və bütün mənzillər şəbəkəyə qoşulub.

Babək rayonu ötən dövrdə aqrar, eyni zamanda sənaye bölgəsi kimi inkişaf edərək muxtar respublika iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Rayonda müxtəlif profilli yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması sənayenin inkişafını təmin edib. Eyni zamanda fermer və torpaq mülkiyyətçilərinə maliyyə dəstəyinin artırılması, müxtəlif güzəştlərin tətbiqi, texnika və avadanlıqlarla təminatın yaxşılaşdırılması, meliorasiya tədbirlərinin gücləndirilməsi, yeni açıq və qapalı su xətlərinin çəkilməsi kənd təsərrüfatının inkişafına əhəmiyyətli təsir göstərib. Ötən il rayon üzrə 117909,9 min manatlıq, yaxud 2016-cı illə müqayisədə 1,5 faiz çox sənaye məhsulu istehsal olunub. Kənd təsərrüfatı məhsullarının həcmi isə 90348,1 manat və yaxud 2016-cı illə müqayisədə 0,4 faiz çox olub.

Babək rayonu ümummilli lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının nəticəsi kimi 40 il bundan əvvəl həyata vəsiqə qazanan, həm də bu ideologiyanın işığında inkişaf edən rayonlarımızdandır.




***Bəli, Azərbaycanın böyük xalq qəhrəmanı Babək bir gün azad yaşamağı qırx il qul kimi yaşamaqdan üstün tuturdu. Xalqımızın ümummilli lideri Heydər Əliyev isə müstəqil Azərbaycanı yenidən qurmaqla əsl azadlığın xalqımız üçün əbədi olduğunu təmin etmişdir. Azərbaycanda xalq qəhrəmanının adına ən böyük ünvan olan Babək rayonu isə bu azadlığın və müstəqilliyin işığında inamla inkişaf edir.***

**Səbuhi HƏSƏNOV**

# Naxçıvanda kənd təsərrüfatı məhsulları istehsalı hər il daha da artır

Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm amillərdən biri kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradıb.

Görülən tədbirlər çərçivəsində Babək rayonunun Nehrəm kəndində tutumu 2500 ton olan soyuducu anbarın yaradılmasına başlanılıb. Soyuducu anbarın istifadəyə verilməsi əhalinin ilboyu keyfiyyətli yerli məhsullarla təminatına şərait yaradacaqdır.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının zəruri texnika ilə təchizatı yüksək rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalında mühüm rol oynayır. Bu məqsədlə muxtar respublikada kənd təsərrüfatı məhsulu istehsalçılarının müvafiq maşın və mexanizmlərlə təchizatı da davamlı olaraq yaxşılaşdırılır. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 166-sı 2018-ci ilin yanvar-mart aylarında olmaqla, cəmi 2220 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilib. 2018-ci ilin ilk rübündə 73 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 26 ədədi nağd yolu ilə satılıb. Bu dövr ərzində məhsul istehsalçıları 5082,5 ton mineral gübrə ilə təmin olunub.

Kənd təsərrüfatının mühüm sahəsi sayılan heyvandarlığın inkişafı da muxtar respublikada diqqətdə saxlanılır. Cari ilin ilk rübündə 10 heyvandarlıq təsərrüfatı yaradılıb, iki heyvandarlıq təsərrüfatının yaradılması davam etdirilir. Ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 1 milyon 101 min 700 manat dəyərində kredit verilib.

2018-ci ilin yanvar-mart aylarında muxtar respublikada diri çəkidə 6111 ton ət, 12 min 551 ton süd istehsal olunub ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,9 və 2,5 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi, məhsulların ixrac imkanlarının genişləndirilməsi və yeni layihələrin reallaşdırılması məqsədilə kredit dəstəyinin verilməsi bu sahədə uğurlu nəticələrin əldə olunması üçün vacib məsələlər kimi daim diqqətdə saxlanılır. Bu baxımdan muxtar respublikamızda iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün sahibkarlığa göstərilən dövlət dəstəyi həmişə öz bəhrəsini verib.

Muxtar respublikada arıçılığın inkişafının stimullaşdırılması, kiçik biznesin dəstəklənməsi və kənd yerlərində məşğulluğun təmin edilməsi üzrə də mühüm tədbirlər həyata keçirilir. İqtisadi cəhətdən yüksək gəlir gətirən, qida və müalicəvi baxımdan faydalı təsərrüfat sahəsi olan arıçılığın daha da inkişaf etdirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilib. 2018-ci ilin ilk rübündə bu sahədə müvafiq tədbirlər görülüb, təsərrüfat subyektlərinə 78 min 600 manat kredit verilib.

Daxili bazarda yerli istehsalın həcminin artırılması məqsədilə 1 balıqçılıq təsərrüfatı yaradılıb, 1 quşçuluq təsərrüfatının yaradılması hazırda davam etdirilir.

Cari ilin ilk rübündə kənd təsərrüfatı sahəsi ilə məşğul olan təsərrüfat subyektlərinə, ümumilikdə, 1 milyon 307 min 400 manat məbləğində kreditlərin verilməsi təmin olunub.

Etibarlı ərzaq təminatı sisteminin yaradılması ixrac potensialını artırıb, 2018-ci ilin ilk rübündə muxtar respublikadan 12 milyon 86 min 600 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunub.

Kənd təsərrüfatının inkişaf etdirilməsinin əsas amillərindən biri də meliorasiya-irriqasiya sistemlərinin yeniləşdirilməsidir. Muxtar respublikada bu sahə də diqqət mərkəzində saxlanılıb, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 410 hektar sahəni əhatə edəcək yeni qapalı suvarma şəbəkəsinin tikintisinə başlanılıb.

Bütün bunların nəticəsində, 2018-ci ilin yanvar-mart aylarında bir il öncəyə nisbətən 3 faiz çox, yəni 27 milyon 510 min 200 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Bu da muxtar respublikada həmin sahənin ildən-ilə daha da inkişaf etdiyini bir daha təsdiq edir.

**Tural AĞAYEV**



*Təhsil millətin gələcəyidir*

# Uğurları ilə öyünən təhsil ocağı

***Naxçıvanda təhsil sahəsinin inkişafı istiqamətində görülən işlərin miqyası ilbəil artır. İndi yolunuzu muxtar respublikanın hansı yaşayış məntəqəsindən salsanız, orada sizi müasir görkəmi və gözəl tədris şəraiti olan məktəblər qarşılayar. Görülən işlər isə gələcəyimiz olan yeniyetmə və gənclərin savadlı, hərtərəfli dünyagörüşünə malik vətəndaş kimi formalaşmasına, Vətənimizə, xalqımıza layiqli övlad kimi yetişməsinə xidmət edir. Hər il keçirilən qəbul imtahanlarında yüksək nəticələrin əldə olunması belə deməyə əsas verir ki, doğma diyarımızda təhsil sahəsi yüksələn xətlə inkişaf etməkdədir.***





Bu gün Naxçıvanda uğurları ilə seçilən ümumtəhsil məktəbləri çoxdur. Həmin təhsil müəssisələrindən biri də Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbidir. Ötən günlərdə yolumuzu adıçəkilən məktəbdən salıb yaradılan tədris şəraiti ilə tanış olduq. Bir daha şahidlik etdik ki, muxtar respublikamızda aparılan kompleks quruculuq işlərindən bu təhsil ocağına da pay düşüb. Burada yaradılan şərait təhsil ocağında da tədrisin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına imkan verib. 2005-ci ildə məktəb binası əsaslı şəkildə təmir olunub, təhsil ocağına görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın adı verilib. Akademikin xatirəsi bu təhsil ocağında da daim əziz tutulur. İl ərzində burada Zərifə xanımın həyat və fəaliyyətinə həsr olunmuş tədbirlər keçirilir, şagirdlər arasında görkəmli oftalmoloqun tibb elminə gətirdiyi yeniliklərdən bəhs olunan müsabiqələr, bilik yarışları və viktorinalar təşkil olunur. Sevindirici haldır ki, məktəbin şagirdləri arasında tibb elminə maraq göstərənlərin də sayı ilbəil artır.

Ötən dövr ərzində bu təhsil ocağı ilə Ukrayna Respublikasının İrpen şəhərində fəaliyyət göstərən Zərifə xanım Əliyeva adına 12 nömrəli xarici dillər üzrə ixtisaslaşmış ümumtəhsil məktəbi arasında dostluq əlaqələri qurulub. Həmin məktəbdə Zərifə xanımın Xatirə muzeyi yaradılıb. Muzeyə Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbi tərəfindən görkəmli oftalmoloqa aid videomateriallar, dərsliklər, onun həyat və fəaliyyətindən bəhs edən əsərlər hədiyyə edilib. Məktəbdə olarkən onu da öyrəndik ki, burada tanınmış akademikin anadan olmasının 95-ci ildönümü ilə bağlı aprelin 28-də İrpen şəhərindəki həmin məktəb ilə birgə tədbir keçiriləcək.

Qeyd edək ki, 2016-cı il noyabrın 28-də Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbinin binası əsaslı şəkildə yenidənqurmadan sonra istifadəyə verilib. Məktəbin direktoru Sarvan Məmmədov dedi ki, hazırda 594 şagird yerlik olan 4 mərtəbəli təhsil ocağında akademik Zərifə xanım Əliyevanın Xatirə muzeyi, 5-i elektron lövhəli olmaqla, 33 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 kompüter, 2 şahmat otağı, müəllimlər, tibb otaqları, kitabxana, idman zalı və bufet vardır. Məktəbdə şagirdlərin keyfiyyətli təhsil almaları üçün yüksək tədris şəraiti yaradılıb. Elektron siniflər keçilən dərslərin əyaniliyini təmin edərək şagirdlərin biliklərə müfəssəl yiyələnmələrinə imkan verir. Belə ki, bu siniflərdə təşkil edilən dərslərdə şagirdlər videogörüntülərin köməyi ilə istənilən kimyəvi reaksiyanı, fiziki və bioloji prosesləri izahlı şəkildə öyrənir və virtual tədris mübadiləsi apara bilirlər. Məktəbdə 38 kompüter quraşdırılıb və internetə qoşulub. Kimya və biologiya laboratoriyaları tədris proqramına uyğun təcrübə avadanlıqları, fizika laboratoriyası isə həm də elektron lövhə ilə təmin edilib. Məktəbin kitabxana fondundakı 9 mindən artıq kitab müəllim və şagirdlərin istifadəsindədir. Burada oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb. Kitab müzakirəsi və mütaliəsi zamanı həmin bədii ədəbiyyatlara geniş yer verilir, bu kitabların mütaliə mədəniyyətində mühüm rolu olduğu şagirdlərin diqqətinə çatdırılır. Şahmat siniflərində təşkil olunan dərslər sayəsində gələcəyin zəka sahibləri yetişir. Geniş idman zalı isə şagirdlərin fiziki hazırlıqlarının artırılmasına, keçirilən muxtar respublika və rayon səviyyəli idman yarışlarında yüksək nəticələr qazanılmasına imkan verir. Təhsil ocağında şagirdlərin hərbi-vətənpərvərlik ruhunda düzgün tərbiyə olunması da ön plana çəkilir. Gənclərin çağırışaqədərki hazırlığı fənni vasitəsilə şagirdlər ilkin hərbi bacarıqlara yiyələnirlər.

Məktəbdə hər birində 15 uşaq olmaqla, 2 məktəbəhazırlıq qrupu da yaradılıb ki, bunun da əsas məqsədi uşaqları tədris prosesinə alışdırmaq, onlarda erkən yaşlardan müəyyən bilik və bacarıqları formalaşdırmaqdır. Məşğələni aparan Solmaz Qurbanova dedi ki, məktəbəhazırlıq qrupları yaradılmazdan öncə 1-ci sinfə daxil olan şagirdlərin əksəriyyəti məktəb təliminə hazırlıqlı olmurdular. Bu da, təbii ki, tədris prosesində axsamalara yol açırdı. Belə ki, müəllim dərs vaxtının çox hissəsini hazırlıqsız uşaqlara həsr edir və fəal uşaqlar tədris prosesindən uzaq qalırdı. Lakin dövlətimizin atdığı bu mütərəqqi addımdan sonra vəziyyət köklü surətdə dəyişilib. İndi uşaqlar məktəbəhazırlıq qrupları vasitəsilə erkən yaşlardan məktəb dərslərinə alışdırılır ki, bu həm müəllimlərin işini asanlaşdırır, həm də valideynlər tərəfindən razılıqla qarşılanır.

Sarvan Məmmədovun dediyinə görə, təhsil ocağında yeni tədris metodlarından istifadə uğurlu nəticələrə yol açır. İnteraktiv dərslərə qoşulmaq, kurikulumların tətbiqi, şagirdlər arasında müsabiqə və viktorinaların keçirilməsi onların bilik səviyyələrini ortaya çıxarmaqla yanaşı, rəqabət hissini gücləndirir. Son illər keçirilən qəbul imtahanlarında şagirdlərin yüksək nəticələr əldə etməsi də məktəbdə tədris prosesinin düzgün qurulmasının nəticəsidir. Bu uğurların davamı ötən il də özünü göstərib. Belə ki, 2016-2017-ci tədris ilində məktəbi bitirən 19 məzundan 13-ü qəbul imtahanlarında iştirak edib ki, onlardan da 8-i tələbə adını qazanıb. İmtahanda iştirak edən abituriyentlərdən 4-ü 500-700 intervalında bal toplayaraq ölkəmizin qabaqcıl ali təhsil ocaqlarına qəbul olunublar.

Təbii ki, hər bir təhsil müəssisəsinin qazandığı uğurlarda, şagirdlərin əldə etdiyi nailiyyətlərdə geniş təcrübəyə malik bacarıqlı müəllimlərin əməyi danılmazdır. Bu məktəbdə də belə pedaqoqlar az deyil. Təhsil ocağında 309 şagirdin təlim-tərbiyəsi ilə 40 müəllim məşğul olur. Müəllimlərin fəaliyyəti, çəkdikləri zəhmət dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, ötən dövr ərzində pedaqoqlardan 1-i “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adına, 2 müəllim isə “Tərəqqi” medalına layiq görülüb. Onlarla söhbət zamanı dedilər ki, bu şərəfli və məsuliyyətli peşə ilə məşğul olduqları üçün fəxr edirlər. Sevinirlər ki, savadlı gənclərin yetişdirilməsində, gələcəyimizin sağlam təməllər üzərində qurulmasında onların da payı var. Bu işə dövlətimiz tərəfindən böyük dəstək göstərilir. Əməklərinin qiymətləndirilməsi pedaqoqları daha da ruhlandırıb, böyük səylə çalışmağa həvəsləndirib.

Bəli, bu gün muxtar respublikanın bütün təhsil ocaqlarında olduğu kimi, Akademik Zərifə xanım Əliyeva adına Şahtaxtı kənd tam orta məktəbində də gələcəyin hərtərəfli biliyə malik gəncləri yetişir. Müəllim kollektivi əzmlə çalışır ki, görkəmli oftalmoloqun adını daşıyan bu məktəb daha da yüksək nailiyyətlər qazansın. İnanırıq ki, bu təhsil ocağı gələcəkdə ölkəmizin ən qabaqcıl təhsil müəssisələri sırasında yer alacaq.

**Nail ƏSGƏROV**

# Sağlam ailə sağlam gələcəyin təminatıdır

***Şərur rayonunun Qarahəsənli Kənd Mərkəzində “Reproduktiv sağlamlıq və ailə dəyərləri” mövzusunda tədbir keçirilib. Tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Ağayeva açaraq sağlam cəmiyyətin formalaşmasında sağlam ailənin rolundan danışıb.***

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova “Ailələrdə qadınların ailə dəyərlərinin və sağlam həyat tərzinin aşılanmasında əsas rolu” mövzusunda çıxış edərək bildirib ki, muxtar respublikada ailələr həmişə uzunömürlü olması və möhkəmliyi ilə seçilib.

Bu gün uşaqları milli ruhda böyütmək, cəmiyyətə layiqli vətəndaş hazırlamaq baxımından ailədə qadınların üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayan Ramilə Seyidova qeyd edib ki, Şərur rayonunda 41 min 376 uşaq vardır. Bu uşaqlardan da 434-ü sağlamlıq imkanları məhdud uşaqlardır. Bu da ümumi uşaqların 1,04 faizini təşkil edir. Muxtar respublika üzrə 1925 sağlamlıq imkanı məhdud uşaq vardır ki, onların da 22,5 faizi Şərur rayonunun payına düşür.

Vurğulanıb ki, sağlam ailənin formalaşması üçün tərəflər sağlam həyat tərzi yaşamalı, nikaha daxil olarkən həkim müayinəsindən keçməli və sonrakı dövrdə qadınların reproduktiv sağlamlığı daim diqqət mərkəzində saxlanılmalıdır.

Sonra Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim-ginekoloqu, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva “Qadınlarda virus hepatitlərinin fəsadları və bətn daxilindəki uşağın xəstəlikləri, onlarla mübarizə yolları” mövzusunda çıxış edib. O, qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq, həmçinin Şərur rayonu üzrə doğulan sağlamlıq imkanları məhdud uşaqların əsas xəstəliklərinin yaranma səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# *“Şəhidim – sənsən uğurum”* adlı tədbir keçirilib



*Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə Naxçıvan şəhər “Gənclik” Mərkəzində aprel şəhidlərinə həsr olunmuş “Şəhidim – sənsən uğurum” adlı tədbir keçirilib. Əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib, sonra Heydər Əliyev adına Hərbi Lisey kursantlarının Vətənə sədaqət andı nümayiş olunub.*

Tədbirdə giriş sözü ilə çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş milli qəhrəmanların, gənclərin tanıdılması ilə bağlı layihələrin həyata keçirilməsinin, qəhrəmanlıq nümunələrinin gənc nəslə təbliğ edilməsinin əhəmiyyətini vurğulayıb.

Universitetin Tarix-filologiya fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Rəsul Bağırov və Mətbuat şöbəsinin müdiri, Jurnalistika və dünya ədəbiyyatı kafedrasının müəllimi Səadət Əliyeva, Regional İnformasiya Mərkəzinin gözdən əlillərin kompüter mütəxəssisi Elməddin Kərimov çıxış ediblər. Qeyd ediblər ki, 2016-cı ilin aprel hadisələri dövlətimizin, ordumuzun gücünü, xalqımızın birliyini, həmrəyliyini, vətənpərvərliyini göstərən döyüşlər kimi tarixin yaddaşına həkk olunub.

Bədii hissədə Jurnalistika ixtisası üzrə I kurs tələbələrinin iştirakı ilə Universitet Televiziyasında şəhidləri haqqında hazırlanmış qısametrajlı film göstərilib. Universitetin Tələbə Teatr Studiyasının, İncəsənət fakültəsi tələbələrinin çıxışları, şəhid Rasim Məmmədovun oğlu Asim Məmmədovun atasına ünvanladığı şeir tədbiri daha da yaddaqalan edib. Sonda universitetin Jurnalistika ixtisası üzrə I kurs tələbələrinin 2018-ci ilin fevralında Cocuq Mərcanlıya səfərindən hazırlanan videoçarx nümayiş olunub.

**Taleh HAXVERDİYEV**

# *“Milli musiqilərimiz gənclərin səsi ilə”* devizi altında konsert proqramı



“Gənclik” Mərkəzində Naxçıvan şəhərinin 2018-ci ildə Gənclər Paytaxtı olması ilə əlaqədar hazırlanmış tədbirlər planının müvafiq bəndinə əsasən “Milli musiqilərimiz gənclərin səsi ilə” devizi altında Naxçıvan Musiqi Kollecinin gənc ifaçılarının konsert proqramı təşkil edilib.

Konsertdə bir-birindən rəngarəng xalq və bəstəkar mahnıları səsləndirilib. Tədbirdə muxtar respublikada təhsil alan əcnəbi tələbələr, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının əsgərləri olmaqla, ümumilikdə, 410 gənc iştirak edib.

Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Mədəniyyət nazirlikləri, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

**Ceyhun MƏMMƏDOV**

## “Memarlıqla rəssamlığın vəhdəti” adlı sərgi açılıb



***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Memarlıqla rəssamlığın vəhdəti” adlı sərgi təşkil edilib. Muxtar respublika Memarlar Birliyi ilə birgə təşkil olunan sərginin açılışında Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva və Memarlar Birliyinin sədri Heydər Əhmədov çıxış ediblər.***

Çıxışlarda bildirilib ki, Naxçıvan memarlıq mühiti tək Azərbaycanda deyil, Şərq memarlığında da seçilib, Yaxın və Orta Şərqdə təsir dairəsinə malik olub. Təqdirəlayiq haldır ki, bu gün Naxçıvanda tikilən binalar qədimliklə müasirliyi özündə cəmləşdirməklə yanaşı, memarlıq üslubu ilə də fərqlənir. Bu binalar yerləşdikləri ərazilərə xüsusi gözəllik verir, ətrafla harmoniya yaradır. Qabaqcıl dünya təcrübəsini və milli ənənələri mənimsəyən memarlarımız muxtar respublikanın inşaat sektoruna yeni üslublar və müasir dizayn formaları gətirməkdədirlər.

Qeyd olunub ki, tarixboyu rəssamlıqla memarlıq vəhdət təşkil edib. Həm memarlıq nümunələrində, həm də rəsm əsərlərində bu bağlılıq özünü açıq şəkildə göstərir. Yaxşı rəssam, peşəkar memar olmaq istəyənlər hər iki sənətin incəliklərini dərindən mənimsəməlidirlər. Bunun üçün muxtar respublikada hər cür şərait yaradılıb. Təşkil olunan belə sərgilər sənət baxımından və ruhən yaxın olan rəssamlarla memarların yaradıcılıq əlaqələrini daha da möhkəmləndirir və onların sənət uğurlarına stimul yaradır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin layihə-smeta qrupunun rəhbəri Qabil Cəfərov, Rəssamlar Birliyinin üzvü, sənətşünas Nizami Alıyev çıxış edərək gənc rəssam və memarları sərgi münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Sonra Rəssamlar Birliyi tərəfindən gənc memarlara Azərbaycan memarlığını özündə əks etdirən kitablar təqdim edilib, sərgiyə baxış olub.

Qeyd edək ki, sərgidə naxçıvanlı rəssamların əl işləri ilə bərabər, memarlıq nümunələri, rəngkarlıq və qrafika, maket və kompüter qrafikası ilə işlənmiş əsərlər də yer alıb. 27 rəsm əsərinin və 27 memarlıq layihəsinin nümayiş olunduğu sərgi aprelin 30-dək davam edəcək.

✍ **Nail ƏSGƏROV**

## Paralimpiya idman növünün inkişafı diqqət mərkəzindədir

***Muxtar respublikada idmanın inkişafı üçün yaradılan şərait məhdud fiziki imkanlı uşaqların sosial reabilitasiya imkanlarını daha da artırıb. Onların cəmiyyətə inteqrasiyası məqsədilə 2016-cı ilin may ayından etibarən Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının boccia idman növü üzrə bölməsi uğurla fəaliyyət göstərir. Boccia paralimpiya idman növündə idmançılardan fiziki güclə bərabər, zehni əmək də (diqqətin bir mərkəzə cəmlənməsi) tələb olunduğundan bu idman növü həm də reabilitasiya xarakterlidir.***



2018-ci il yanvar ayının 25-də Paralimpiya Federasiyasının 2017-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən iclasında muxtar respublikanın rayonlarında boccia bölmələrinin yaradılması qərara alınıb. İlk olaraq Culfa rayonunda məşqlər aparmaq üçün məşqçi-müəllim müəyyən edilərək təlimlərə cəlb edilib və fevralın 22-də Culfa şəhər 3 nömrəli tam orta məktəbdə boccia bölməsinin ilk məşqi keçirilib. Bölməyə ilk olaraq 6 sağlamlıq imkanı məhdud uşaq cəlb olunub. Daha sonra isə muxtar respublikanın bütün bölgələrində məşqçi-müəllimlər müəyyənləşdirilərək bölmələr yaradılıb. Onların hər biri oyun üçün zəruri olan toplar və digər avadanlıqlarla təchiz edilib. Muxtar respublikada paralimpiya idman növləri üzrə idmançıların yetişdirilməsi və müəllimlərin təkmilləşdirilməsi məqsədilə ötən illərdə Azərbaycan Milli Paralimpiya Komitəsinin qolbol və stolüstü tennis üzrə yığma komandalarının baş məşqçiləri buraya dəvət olunub.

Həmin tədbirlərin davamı olaraq boccia məşqçilərinin bacarıqlarını daha da artırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının dəvəti ilə Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia üzrə milli komandasının baş məşqçisi, Azərbaycan Boccia İdman Federasiyasının katibi İlham Məhərrəmovun rəhbərliyi ilə məşqçilər heyəti muxtar respublikaya gəlib. Paralimpiya Federasiyasının hazırladığı proqrama əsasən dəvət olunanlar 6 gün ərzində federasiyanın boccia bölmələrində təlim-məşqlərdə olub, yarışların keçirilməsi, idmançıların hazırlanması üçün məşqçilərə təlimatlar verilib. Yekunda muxtar respublikada fəaliyyət göstərən bütün boccia bölmələrinin iştirakı ilə Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində yoxlama oyunları keçirilib. Həmçinin oyunun idarə olunması ilə bağlı hakimlərin hazırlanması üçün seminar təşkil edilib. Seminarda beynəlxalq qaydalara əsasən kateqoriyalar üzrə yarışların təşkili haqqında məlumat verilib.

Onu da qeyd edək ki, ilk dəfə 2016-cı ildə sağlamlıq imkanları məhdud uşaqların iştirakı ilə boccia üzrə muxtar respublika yarışı, daha sonra isə 2017-ci ilin mart ayında muxtar respublika birinciliyi keçirilib. 2016-cı ildə keçirilən “2-ci Respublika Uşaq Paralimpiya İdman Oyunları”nda muxtar respublikanı təmsil edən iki paralimpiyaçı müvəffəqiyyətlə çıxış edərək 1-ci və 3-cü yerlərə sahib olublar. 2017-ci ildə “3-cü Uşaq Paralimpiya İdman Oyunları”nda isə muxtar respublikamızı boccia üzrə təmsil edən 3 paralimpiyaçıdan ikisi 2-ci, biri 3-cü yerə layiq görülüblər. 2017-ci ildə böyüklər arasında 4-cü respublika turnirində muxtar respublikamızı təmsil edən 1-ci qrup əlil Qafqaz Hüseynov 3-cü olub. Bütün bunlar bir daha onu göstərir ki, muxtar respublikamızda bu idman növü özünün inkişaf dövrünü yaşayır.

## Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzadan 32 il ötür

1986-cı il aprelin 26-da Ukraynadakı Çernobıl Atom Elektrik Stansiyasında XX əsrin ən böyük texnoloji qəzası baş verib.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında Çernobıl Atom Elektrik Stansiyasında baş verən qəzanın 32-ci ildönümü münasibətilə tədbirlər keçirilib.

Naxçıvan şəhərində keçirilən tədbirdə bildirilib ki, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəza nəticəsində güclü radioaktiv sızma minlərlə insanın həlak olmasına, sağlamlıqlarını itirməsinə və yaşayış yerlərini tərk etməsinə səbəb olub. Həmin texnoloji qəzanın ağır nəticələrinin aradan qaldırılması işlərində muxtar respublikanın 500 nəfərə yaxın sakini iştirak edib. Ölkəmizdə bu kateqoriyadan olan vətəndaşların statusu və sosial müdafiəsini tənzimləyən müvafiq qanun və normativ-hüquqi aktlar qəbul olunub.

Tədbirdə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması zamanı zərərçəkmiş muxtar respublika sakinlərinin sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən onların müalicələrinin təşkili, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, nəqliyyat vasitələri ilə təmin edilməsi, habelə müxtəlif sosial xidmətlərin göstərilməsi istiqamətində davamlı tədbirlərin həyata keçirildiyi qeyd olunub.

Sonda Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasında iştirak edən, ümumilikdə, 257 nəfərə ərzaq payı təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalininin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tibb işçiləri üçün təkmilləşdirmə kursları

Tibb işçilərinin ixtisas səviyyəsinin artırılması muxtar respublikamızda diqqət mərkəzində saxlanılan məsələlərdəndir. Bu məqsədlə onlar mütəmadi olaraq Bakı şəhərinin, Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına kurslara göndərilir və digər tədbirlərdə iştirak edirlər. Son illər ayrı-ayrı ixtisas həkimlərinin, eləcə də orta tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi də belə tədbirlərdəndir.

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişi əsasında cari ilin fevral ayından başlayaraq şəhər, rayon və kənd tibb müəssisələrində çalışan mamaların təkmilləşdirmə kurslarına başlanılıb. Onlar öz ixtisasları üzrə Naxçıvan Tibb Kollecində 8 gün nəzəri dərslər, Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində isə 10 gün təcrübə keçirlər. Kursu bitirənlər imtahandan keçərək sertifikat alacaqlar.

Bu günədək Babək, Culfa, Kəngərli rayonlarında çalışan 59 tibb işçisi imtahandan müvəffəqiyyətlə keçərək sertifikat alıb. Hazırda kurslar davam edir.

**Xəbərlər şöbəsi**

## Muxtar respublika birinciliyinin qalibləri məlum olub

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında qol güləşi üzrə muxtar respublika birinciliyi keçirilib.***

Birincilikdə 60-a yaxın idmançı 8 çəki dərəcəsində mübarizə aparıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə keçirilən yarışın yekun nəticəsinə əsasən Məsum Məmmədli (54 kiloqram), Ayxan Seyidov (60 kiloqram), İsmayıl Mirzəyev (66 kiloqram), Xızır İsmayılov (72 kiloqram), Elxan Babazadə (78 kiloqram), Vəli Şirəliyev (84 kiloqram), Allahverdi Allahverdiyev (90 kiloqram) və Razim Məmmədov (+90 kiloqram) bütün rəqiblərinə qalib gələrək birinci olublar.

Sonda qaliblərə nazirlik tərəfindən diplom və medallar təqdim edilib.

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 25 may 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 3900 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Xok kəndi | 16 000 | 800 |
| 2. | 1300 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Yeni Kərki kəndi | 15 800 | 790 |
| 3. | 3100 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Xok kəndi | 14 000 | 700 |
| 4. | 1300 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Yeni Kərki kəndi | 13 500 | 675 |
| 5. | 600 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 1 otaqlı fərdi yaşayış evi | Kəngərli rayonu, Xok kəndi | 7 300 | 365 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh Naxçıvan Muxtar Respublikası Mərkəzi Bankının İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 22 may 2018-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 25 may 2018-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Film nümayiş etdirilib

Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində gənc nəslin Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması, qəhrəmanlıq tariximizin, Qarabağ həqiqətlərinin gələcək nəsillərə çatdırılması məqsədilə “Son nəfəsədək” bədii filminin nümayişi keçirilib.

Filmə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları və “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası əsgərləri də daxil olmaqla, ümumilikdə, 410 gənc baxıb. Film maraqla qarşılanıb.

Tədbir Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Muradov Hüseyn Əhməd oğlunun adına olan JN-432[A] inventar nömrəli, 10311018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 305